# Ermənistanda "toy"dur, Tramp administrasiyasının xəbəri yox

**Cənubi Qafqaz həmişə dünyanın böyük dövlətlərinin, güc mərkəzlərinin maraqlarının toqquşduğu region olub. Uzun illər davam edən Azərbaycan-Ermənistan münaqişəsinin "ideya" müəlliflərinin də bu regionu öz nüfuz dairəsində saxlamaq istəyən dövlətlərin olduğu heç də təzə söhbət deyil.**

2020-ci ildə Azərbaycanın Vətən müharibəsində qazandığı qələbədən sonra regionda geosiyasi vəziyyətin dəyişməsi, Azərbaycanın müstəqil siyasət yürütməsi Cənubi Qafqazda marağı olan dövlətləri demək olar ki, çıxılmaz vəziyyətə salıb. Baxmayaraq ki, məlum iki ölkə arasında sülh danışıqlarına "vasitəçilik" etmək arzusunda olan dövlətləri regionda sülhdən çox öz siyasi maraqları, regiona kimin nəzarət edəcəyi düşündürdüyü heç də sirr deyil. Əslinə qalsa, vaxtilə münaqişəyə cəlb olunmuş Azərbaycan və Ermənistan arasında barışın olmasını istəməyən qüvvələr regionda sülhə nail olmaq istəyənlərdən çoxdur və onlar Prezident İlham Əliyevlə baş nazir Nikol Paşiniyanın Əbu-Dabi görüşündən sonra daha da fəallaşıblar.

Ermənistanı daim öz nəzarətlərində saxlayıb Azərbaycana qarşı təzyiq vasitəsi kimi istifadə etmək istəyən dövlətlər Qarabağ münaqişəsindən bu ölkədə hakimiyyət dəyişikliyi üçün yetərincə istifadə ediblər. 44 günlük Vətən müharibəsində Azərbaycanın öz torpaqlarını azad etməsi bəzi dövlətlərin oyuncaqları əllərindən alınan uşaq kimi cığallıq etmələrinin, Azərbaycana qarşı qərəzli mövqe tutmalarının əsas səbəbi oldu. Qarabağ ermənilərini geosiyasi maraqlarının qurbanına çevirən qüvvələr öz mənfur niyyətlərindən əl çəkmək istəmədilər. Aydın məsələdir ki, kənar qüvvələrin hakimiyyətə gətirdiyi qüvvələr də elə kənardan gələn sifarişləri can-başla yerinə yetirməyə məhkum idilər.

Sirr deyil ki, uzun illər Ermənistanda hakimiyyət dəyişikliyi üçün sifarişləri ermənilərin ideoloji mərkəzi kimi fəaliyyət göstərən Erməni Qriqoryan Kilsəsi qüsursuz icra edib. Təsadüfi deyil ki, XX əsrdə Qərbi Azərbaycandan soydaşlarımızın deportasiya edilməsinin bir qayda olaraq ideya müəllifi və ideoloji rəhbəri həm də erməni kilsəsi olub. Birinci Qarabağ savaşında xalqımıza qarşı törədilən soyqırımların, məscidlərin və mədəni tarixi abidələrimizin məhv edilməsinin ilhamvericisi məhz erməni kilsəsi idi.

2018-ci ilin yazında Paşinyan hakimiyyətə gələndə Erməni Qriqoryan Kilsəsinin fəaliyyətinin təftiş ediləcəyini söyləmişdi. Sözsüz ki, baş nazirin bu niyyəti kilsə rəhbərliyi üçün arzuolunan deyildi. Bununla da hakimiyyəti ortaqsız idarə etmək niyyətində olan Paşinyanla kilsə arasında soyuq müharibə başladı. 44 günlük müharibədən sonra II Qaregin Paşinyanı sərt tənqid edərək məğlubiyyətin tək səbəbkarı kimi onu göstərdi. N.Paşinyan isə elan etdi ki, dövlətin kilsəyə yardımı dayandırılacaq. Əks halda verilən yardımın auditi aparılacaq.

Faktiki olaraq erməni kilsəsi 2020-ci ildən sonra dini məkandan çox, ultramillətçilərin, revanşistlərin cəmləşdiyi, Paşinyanı devirməyə çalışan qüvvələrin qərargahı kimi fəaliyyət göstərir. Təbii ki, keşiş Baqratın, keşiş Ktritç Nersisyanın Paşinyan hakimiyyətinə qarşı təşkil olunan hücumların təşkilatçısı da II Qaregindir.

Son günlər Ermənistanın baş naziri Nikol Paşinyanla Erməni Qriqoryan Kilsəsinin rəhbəri II Qaregin arasında münasibətlər daha da gərginləşib. Baş nazir kilsənin rəhbəri İkinci Qaregini vəzifədən getməyə və "kilsəni xalqa qaytarmağa" çağırıb. Kilsə isə Paşinyanı Ermənistan dövləti və xalqının birliyini pozmaqda günahlandırır. Beləcə, söz savaşı artıq pik həddə çatıb.

Bu yerdə diqqətçəkən daha bir məqam da var. 87 konqresmen ABŞ Prezidenti D.Tramp administrasiyasına müraciət edərək ermənilərin "Dağlıq Qarabağ"a qayıtmasına dəstək verməyə çağırıblar. Müraciəti ABŞ Konqresində Ermənistanla dostluq qrupunun həmsədrləri Frank Paloni, Qas Biliraкis, Bred Şerman və Devid Valadaonun rəhbərliyi ilə hər iki partiyadan olan konqresmenlər imzalayıblar. Qarabağdakı separatçı rejimin keçmiş ombudsmanı Qeğam Stepanyan "Azadlıq radiosu"nun erməni xidmətinə açıqlamasında konqresmenlərin bu məktubunun Amerika Erməni Milli Komitəsinin (ANCA) fəaliyyəti sayəsində reallaşdığını bildirib. Məktubun erməni diasporu tərəfindən hazırlandığı mətnindən də aydın görünür. ABŞ Konqresinin 87 üzvü dövlət katibi Marko Rubioya ünvanladıqları məktubda Qarabağ ermənilərinin "Dağlıq Qarabağdakı ata-baba yurdlarına təhlükəsiz, ləyaqətli və kollektiv qayıdışının təmin olunması üçün səylərin artırılmasını" tələb ediblər. Müraciətdə vurğulanır ki, Azərbaycanın 2023-cü il sentyabr hərbi əməliyyatları nəticəsində təqribən 120 min Qarabağ ermənisi evlərini tərk etmək məcburiyyətində qalıb. Məktubda həmçinin "Qarabağdakı mədəni irsin və mülki infrastrukturun məhv edildiyi, bunun da ermənilərin geri dönüşünə mane törətdiyi" iddia olunur.




44 günlük Vətən müharibəsi ərəfəsində, eləcə də həmin dövrdə Qarabağda təxminən 50 min civarında erməninin yaşadığı barədə erməni mənbələrində kifayət qədər məlumata rast gəlmək olar. Heç əsas məsələ rəqəmlərdə də deyil. Konqres üzvlərinin adından imzalanmış sənəddə Qarabağdan "köçürülən xristian əhalisi", "dağıdılan kilsələr və monastırlar" kimi fikirlərin təkrar-təkrar vurğulanması təkcə reallığın təhrifi yox, eyni zamanda münaqişəyə dini xarakter verməyə yönəlmiş təhlükəli bir cəhddir. Təbii ki, bu, heç də təsadüfi deyil - məktub daha çox erməni kilsəsini Paşinyandan qorumaq məqsədi ilə elə "kilsə xadimləri" tərəfindən də hazırlanıb.

ABŞ-də erməni lobbisinin demokratlara daha yaxın olması məlumdur. Hakimiyyətdə isə bu gün respublikaçılardır. Amma hiyləgər erməni lobbisi D.Trampın, yəni respublikaçıların mövqelərinin zəifləyəcəyini düşünürlər. Burada məqsəd həm də indiyədək erməni diasporundan alınan pullar hesabına qeyri-şəffaf korrupsiya sxemləri qurmuş konqresmenlərin ifşa olunmaq qorxusudur. Menendez artıq həbsdədir, Adam Şiffi də həbs gözləyir (Trampın Şiffi oğru və fırıldaqçı adlandırması, onun həbs cəzası almalı olduğunu bildirməsi və s.).

Konqresmenlərin müraciətinin ABŞ Prezidenti Donald Trampın Azərbaycan Prezidenti İlham Əliyevin Şuşa Qlobal Media Forumunda səsləndirdiyi çıxışından məlum hissənin videosunu paylaşmasından sonra üzə çıxması da təsadüfi deyil. Şübhəsiz ki, uzun illər cəzasız qalan fırıldaqçı və korrupsioner konqresmenlər Tramp administrasiyasının bu "bataqlığı" qurudacağını və cəzalandırılacaqlarını anladığından ABŞ Prezidentinin bütün, o cümlədən sülh təşəbbüslərini gözdən salmağa çalışırlar.

Hələlik, ABŞ adminstrasiyasından müraciətə münasibət bildirilməyib. Buna baxmayaraq, Ermənistanda revanşistlər bayram içindədirlər. Azərbaycan isə öz müstəqil siyasətini heç bir kənar təsirə baxmadan davam etdirir.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

Azərbaycan.-2025.- 27 iyul (№ 154).- S.4.